ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 1, Say 1, Sıra I, 2020, 38-47

# BEAUTY AND LOVE IN NASIMI'S AESTHETIC PHILOSOPHY

**Aynur Nazarova**[1]

УДК 16.
KBT 87.4.

**Keywords:**

Nasimi
Tasawwuf
Hurufism
Man
Love
Beauty
Divine love

## ABSTRACT

The religious and philosophical doctrine of Hurufism was so close to the socio-historical, literary and cultural environment, as well as the artistic thought of Azerbaijan in the XIV-XV centuries. It is impossible not to mention Imadaddin Nasimi, one of the most perfect experts in Hurufism in the social, religious, philosophical and literary and cultural realities of that period, and to imagine our literature of that time without him. Nasimi's ghazals, a follower of the Hurufi ideology, are a resolute glorification of the Hurufites' doctrines about man. These doctrines were a novelty in the history of mankind and sanctified man in terms of knowing God.From this perspective, Nasimi, who brought a new understanding of the concept of "perfect man" to the philosophical and religious thought of both Azerbaijani and Eastern literature, highlights the spiritual strength and abilities of man, thereby claiming that man reached God through perfection. The great thinker, who described and glorified the manifestation of God's beauty and wisdom in man, demanded the worship for this beauty.

The works of Imadaddin Nasimi, which grew up on the basis of the philosophical views of the doctrine of Hurufism, glorify a person as a lover of truth. The poet considers lovers to be perfect people. The singer of world beauty, Nasimi, exalts a woman and love for woman with endearing artistic power of great poetry and contrary to the words of those who consider love to be a sin; he declaredthat he would not leave the path of love, for only this path leads to truth - God.The poetic description of beauty and love occupies a decisive place in Nasimi's aesthetic concept. There are various poetic descriptions and interpretations of beauty in Nasimi's poetry. From this point of view, the article provides vivid examples of love for the women in Nasimi's ghazals expressing divine beauty.

The article considers the concept of the Perfect Man, which is key for the anthropology of Tasawwuf, and briefly describes its origins and role in the Sufi worldview.

[1] ANAS, Institute of History of Science
https://orcid.org/0000-0002-9735-3149
xubanova77@mail.ru

*Received: 15.07.2020*
*Accepted: 11.09.2020*

# NƏSİMİNİN ESTETİK FƏLSƏFƏSİNDƏ GÖZƏLLİK VƏ EŞQ

**Aynur Nəzərova**[1]

УДК 16.
КВТ 87.4.

**Açar sözlər:**

Nəsimi
Təsəvvüf
Hürufilik
İnsan
Məhəbbət
Gözəllik
İlahi eşq

**ANNOTASİYA**

XIV-XV yüzilliklərdə dini-fəlsəfi təriqət olan hürufilik cərəyanı həmin dövr Azərbaycan ictimai-tarixi, ədəbi-mədəni mühiti və eyni zamanda bədii fikri ilə o dərəcədə sıx idi ki, həmin dövrünictimai dini-fəlsəfi və ədəbi-mədəni gerçəkliyində hürufiliyin ən mükəmməl bilicilərindən hesab edilən Seyid İmadəddin Nəsimidən söz açmamaq, həmin dövr ədəbiyyatımızı o olmadantəsəvvür etmək qeyri-mümkündür. Hürufilik ideologiyasının davamçısı Nəsiminin qəzəlləri hürufilərin insan haqqında təlimlərinin qətiyyətlə tərənnümüdür. Bu təlimlər isə insanlıq tarixində bir yenilik idi, Allahı tanımaq baxımından insanı müqəddəsləşdirən təlimlər idi. Məhz bu perspektivdə həm Azərbaycan, həm də Şərq ədəbiyyatı və fəlsəfi-dini düşüncəsinə «kamil insan» anlayışının yeni təsəvvürünü gətirən Nəsimi insanın mənəvi gücü və bacarıqlarını əsas götürürdü, beləliklə, insanın kamilləşməklə Allaha çatdığını iddia edirdi. Allahın gözəlliyi və müdrikliyinin insanda zühur etdiyini təsvir və tərənnüm edənböyük mütəfəkkir bu gözəlliyə pərəstişi tələb edirdi.
Hürufilik təliminin fəlsəfi görüşləri əsasında yetişən İmadəddin Nəsimi yaradıcılığı insanı həqiqət aşiqi qismində tərənnüm edir. Şair eşq əhlini kamil insan hesab edir. Dünyəvi gözəlliyin tərənnümçüsü Nəsimi böyük poeziyanın ecazkar bədii gücü ilə qadını, qadına məhəbbəti yaradıcılığı boyunca üstün tutmuş, sevgini günah hesab edənlərin sözlərinin əksinə olaraq, sevgi yolunu tərk etməyəcəyini, çünki yalnız bu yolun həqiqətə - Allaha apardığını bəyan etmişdir. Gözəllik və eşqin poetik təsviri Nəsiminin estetik konsepsiyasında həlledici yer tutur. Nəsimi poeziyasında hüsnü-cəmalın müxtəlif poetik təsvirləri və məna şərhləri var. Bu baxımdan məqalədə Nəsiminin ilahi gözəlliyi tərənnüm edən qəzəllərində qadına məhəbbəti tərənnüm edən parlaq nümunələr verilmişdir.
Məqalədə təsəvvüf antropologiyasının açarı olan mükəmməl insan konsepsiyası öz əksini tapmış və təsəvvüf dünyagörüşündə mənşəyi və rolu qısaca təsvir edilmişdir.

[1] AMEA, Elm Tarixi İnstitutu, “Tərcümə və informasiya” şöbəsinin müdiri
https://orcid.org/0000-0002-9735-3149
xubanova77@mail.ru

*Məqalə redaksiyaya daxil olmuşdur: 15.07.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 07.082020*
*Çapa qəbul edilmişdir: 11.09.2020*

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 1, Say 1, Sıra I, 2020, 38-47

# КРАСОТА И ЛЮБОВЬ В ЭСТЕТИЧЕСКОЙ ФИЛОСОФИИ НАСИМИ

**Айнур Назарова**[1]

УДК 16.
КВТ 87.4.

**Ключевые слова:**

Насими
Тасаввуф
Хуруфизм
Человек
Любовь
Красота
Божественная любовь

**РЕЗЮМЕ**

В XIV-XV вв. религиозно-философское учение хуруфизма было настолько близко социально-исторической, литературно-культурной средой, а также художественной мыслью Азербайджана того времени, что невозможно не упомянуть Сейида Имадеддина Насими, одного из самых совершенных знатоков хуруфизма в социальной религиозно-философской и литературно-культурной реалиях того периода, и осознать нашу литературу того времени без него. Газели Насими, последователя идеологии хуруфизма, являются решительным прославлением учения хуруфитов о человеке. Эти учения были новизной в истории человечества, были учениями, которые освятили человека с точки зрения познания Бога. Именно в этой перспективе Насими, принесший новое представление о концепции «совершенного человека» как в азербайджанскую, так и в восточную литературу, философскую и религиозную мысль основывался на духовной силе и способностях человека, тем самым утверждая, что человек достиг Бога через совершенство. Великий мыслитель, описавший и прославивший проявление Божьей красоты и мудрости в человеке, требовал поклонения этой красоте.

Произведения Имадеддина Насими, выросшие на основе философских взглядов учения хуруфизма, прославляют человека как любителя истины. Поэт считает влюбленных совершенным человеком. Певец мировой красоты Насими всепокоряющей художественной силой большой поэзии возвышал женщину и любви к женщинам, и заявлял вопреки словам тех, кто считает любовь грехом, что он не оставит пути любви, ибо только этот путь ведет к истине – богу. Поэтическое описание красоты и любви занимает решающее место в эстетической концепции Насими. Существуют различные поэтические описания и интерпретации смысла в поэзии Насими. В статье приводятся яркие примеры любви к женщинам в газелях Насими, выражающие божественную красоту.

В статье рассматривается ключевой для антропологии Тасаввуфа концепт Совершенного Человека, вкратце описываются его истоки и роль в суфийском мировоззрении.

[1] НАНА, Институт истории науки
https://orcid.org/0000-0002-9735-3149
xubanova77@mail.ru

## GİRİŞ

***Allahü əkbər, ey sənəm, hüsnünə heyran olmuşam,***
***Qövsü-qüzehdi qaşların, yayinə qurban olmuşam.***

Bu gün böyük filosof-şair, siyasi, ictimai, əxlaqi mövzularında əsərləriylə "söz mülkünün sultanı" olan Nəsimi dünya qarşısında bütün əzəməti ilə ucalır. VIII əsrdə İslam sivilizasiyası hadisəsi kimi meydana çıxan,tarixən mütərəqqi bir ictimai və mənəvi hərəkat olan Təsəvvüf - İslamın inkişafında mistik bir istiqamətdir və Azərbaycan ədəbiyyatında təsəvvüfi seirin inkişafında böyük rolu olan Nəsimi sözü indiyə qədər yer üzünə gəlib-keçmiş ən böyük həqiqətlərdən biridir. Nəsimi əsərlərində uca Tanrı ilə insan arasında əlaqə, ilahi həqiqətə aparan yol, bu həqiqəti dərk etməyin vasitələri kimi mətləblər əsasən təsəvvüf ədəbiyyatı ənənələri nöqteyi-nəzərindən şərh olunur. Türk və müsəlman Şərq xalqlarının ədəbiyyat tarixində şairlik qüdrəti ilə seçilən və tədqiqatçılar tərəfindən hərtərəfli araşdırılsa da, doğum və ölüm tarixindən tutmuş, yaradıcılığı, yaşadığı yeri, ədəbi və təsəvvüfi şəxsiyyəti, fəlsəfi fikirlərinə qədər mübahisəli qalan böyük islam və hürufi şairimiz ədəbiyyatımızın dünyəviləşə bilən simalarından biridir.

Hər dövrün öz təsəvvürü var. Sovet ideologiyası nöqteyi-nəzərdən Nəsimidə ateizm axtaran və "tapan"lar onu kafir adlandıraraq "dinsiz Nəsimi" portretini yaratmışdılar. O isə qətiyyən ateist deyildi və onu materialist kimi qiymətləndirmək səhv fikirdir. Danılmaz faktdır ki, tarix özünü təshih də edə bilir. Hürufi təriqətin fəlsəfəsinin Quran, islam və insanla, onların qarşılıqlı əlaqələri ilə bağlı olduğu öz təsdiqini tapdı. Əlbəttə ki, Qurani-Kərimi dərindən bilən, İslamın batini mahiyyətini tərənnüm edən Nəsiminin fəlsəfi və dini dünyagörüşü XIV-XV əsrlər dövrü üçün mütərəqqi bir fenomen idi. Həqiqəti dərk etməyin əsl yolunu hürufilikdə görən mütəfəkkir şairin qəzəllərindəki fəlsəfi ideyaların da əsası hürufilikdir.

Təsadüfi deyil ki, yaşadığı dövrün yeddi ən elmli, ən görkəmli dərvişlərindən biri hesab edilən (Gibb 1900: 351). Nəsiminin yüksək zəkasını əks etdirən fəlsəfi poeziyası əsrlər boyu Gözəllik, Həqiqət və Ədalət axtaranları özünə cəlb etməkdədir. Hələ öz çağından etibarən "Gərçi bu gün Nəsimiyəm..." deyərək məsləki və əqidəsi uğrunda qanı və canı ilə mübarizə aparan və cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, mövhumata etiraz səsini ucaltmış böyük söz ustadının yaradıcılığı başdan-başa sirlərlə doludur. Ümumiyyətlə, hürufilik təliminin ayrı-ayrı şəxsiyyətləri, məsələn, Fəzlullahın ailə üzvləri, onların taleyi, hürufiliyin ən tanınmış təmsilçisi Seyid İmadəddin Nəsiminin həyatı və şəxsiyyəti ilə bağlı bir çox ənənəviləşmiş, lakin tarix gerçəkliyi əksetdirmə baxımından mübahisəli fikirlər də mövcuddur (Şıxıyeva 2018: 92).

Nəsiminin, dediyimiz kimi, sirlərlə dolu yaradıcılığına nəzər salaq.

### Çoxəsrlik tariximizdə Nəsiminin yeri və qəzəllərindəki gizli ilahi eşq

Qaynaqları uzaq keçmişlərə söykənən Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixində Nəsimini yaşadan nədir? Hürufilik ideologiyasının davamçısı Nəsimini böyük şair və mütəfəkkir kimi sevdirən cəhətlərdən biri hürufilərin insan haqqında təlimlərini misilsiz bir inam və səmimiyyətlə tərənnüm etməsi idi. Bu təlimdə həqiqətən insanı müqəddəsləşdirən bir yenilik vardı və bu təlimlər insanlıq tarixində bir yenilik idi, Allahı tanımaq baxımından insanı müqəddəsləşdirən təlimlər idi. Onun bu səciyyəli əsərləri sağlığında da sevilirdi və "nəsimilər" adlandırılaraq, eldən-elə dolaşırdı.

Birincisi, ümumşərq coğrafiyasında qüdrətli şair kimi tanınmış Nəsimiyə olan məhəbbətin ən əsas səbəblərindən biri onun şəxsiyyəti idi. İkinci, bütün bəşəriyyəti öz yaradıcılığı ilə əsərlərində ifadə etməklə dünya ədəbiyyatına böyük təsirgöstərən məhz Nəsimi olmuşdur. Nəsimi zəngin yaradıcılığı ilə Şərq ədəbi-mədəni düşüncəsində yeni sferaya qədəm qoymuş, bütün türk ədəbiyyatına qüvvətli təsir göstərmişdir. Onun poetik irsi hürufilik məfkurəsinin sözlə ən dolğun və sərrast bədii-estetik təzahürü, poetik manifestidir.

Bir şeir xiridarı Əbdülrəhman Camidən şeir mülkünün peyğəmbərlərinin kimliyini soruşur. Cami Firdovsinin, Sədi Şirazinin, Hafiz Şirazinin, Xəyyamın, Cəlaləddin Ruminin adlarını çəkir. Şeir xiridarı təəccüblə "Bəs Nəsimi?", - deyə soruşduqda Cami soyuqqanlılıqla "Sən şeir Allahını soruş-

madın axı", - deyə cavab verir... Bəli, "tükənməyən, sonu olmayan kainatda" söz kainatı yaratmış Nəsimi nədən danışırsa-danışsın, nədən yazırsa-yazsın, ondan şairanə, obrazlı dillə söhbət açır, hətta elmi axtarışlarında belə, fikirlərinin ifadəsində obrazlı təfəkkür tərzini əsas tutur, dilindəki bədii-publisistik qatı vacib bilir.

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik zəngin sənət çeşməsində ilkin ibtidai əmək nəğmələrindən tutmuş klassik ədəbi irsimizvə bu günün möhtəşəm yaradıcılıq abidələrində hər zaman Haqqın təcəllisi, töhfəsi kimi insan, gözəllik və məhəbbət əsas tərənnüm predmeti olmuşdur. Zahiri görkəm, hüsn, camal gözəlliyi folklorda, bədii düşüncədə özünə geniş yer almışdır. Əfsanə, atalar sözü, bayatı, nəğmə, nağıl, rəvayət, dastan və s. nümunələrdə bunun lazımı qədər maraqlı nümunələri vardır. Təsəvvüf alimlərinə görə, İslam elmlərində olduğu kimi hürufiliyin qaynağı da Quran və hədislərdir. Tarixin müxtəlif zaman kəsimlərində yaşayıb yaratmalarına baxmayaraq, Qurani-Kərimin gizli hikmətlərinə bələd olan Azərbaycanın böyük klassiklərinin yaradıcılığında insanın ali bir varlıq və şərəfli bir yaradılmış kimi dərki mərkəzi yer tutmuşdur. Nəsimi şeirlərində insan gözəlliyini, kamalını tərənnüm etməklə məhz insanın hər cür bəladan xilasını Tanrını "görmək"lə əlaqələndirirdi.

İslam Şərq ədəbiyyatında Qurandan bəhrələnən Nəsimi hürufilər üçün tipik olan "Allah - söz - insan" düsturunu rəhbər tuturdu. O, Allahla insanı vəhdətdə görür və təsəvvür edirdi. "Tanrını qəlbinin gözü ilə görmək" gərəkliyini təbliğ edən Nəsimi fikrini metaforik ifadə etsə də, qəlbində Tanrı eşqi olan insanı Quran qissələrindən istifadə edərəkbir o qədər "mütləq" tərənnüm edirdi.

Poeziyamızın fatehi Nəsiminin yaradıcılığının ən dərin mənəvi-fəlsəfi qatlara nüfuz edən təsir dairəsi onun məhz ilahi rabitə nümunəsi olaraq paklığı və müqəddəsliyi qoruyub saxlamasındadır:

**Saçındır leylətül-əsra, qaşun əsrari-ma ovha,**
**Qanı həqdən irişmiş can bu ma ovhavü ovhaya?**
**(İmadəddin 2004.C.II :343)**

– "Ey insan, Quranda xəbər verilən (leylətül-əsra) merac gecəsi sənin saçın və həmin gecə Məhəmmədə ilham olunan sirlər isə sənin qaşlarındır" deməklə şair insan gözəlliyini yüksək qiymətləndirirdi, qəzəllərinin çoxunu gözələ müraciətlə başlayıb, onu mədh və idealizə edirdi. Orta əsr feodal cəmiyyətində şəriət ehkamlarına etiraz edən Nəsimi əslində "Allah insanın özündədir" ideyasını irəli sürməklə, əlbəttə ki, ecazkar ustalıqla qadın gözəlliyindən mütləq Tanrı gözəlliyini ifadə etmək üçün mücəssəm varlıq olaraq istifadə edirdi. Əsərlərini Qurani-Kərimin poetikası əsasında yaradan şairin bütün səyləri həssaslıqla Allaha yaxın olmaq idi. Məhz bu, Nəsiminin yaradıcılığında ən əsas məqamlardan biridir. Ümumiyyətlə, qəzəllərində hər bir fikri, fəlsəfi-məntiqi nəticəni Qurani-Kərimin müqəddəs ayələri ilə sübuta yetirən Nəsimi bütün yaradıcılığı boyu Tanrını "görmək" üçün Quran ayə və ifadələrindən yararlanmışdır.

**Həqq əyan oldu, gəlin, Həqqi görün,**
**Həqqi batildən seçin, fərqi görün,**
**Bədrimin yüzindəki şəqqi görün,**
**Aləmə sığmaz ənəlhəqqi görün.**
**(İmadəddin 2004.C.II: 280)**

Burada şairin bədii məntiqindən çıxış edərək açıq-aşkar Allahı nəzərdə tutduğunu qəti söyləmək olar. İrfani düşüncə kontekstindən baxanda şair sonrakı misrada gizli ilahi sirri aşkara çıxarır. Ona məlum olan həqiqətin sirlərini açmaq məharətinə malik Nəsiminin şairliklə yanaşı, bir təbliğatçı kimi şeirlərində öz mövqeyini təlqinetmə gücü də olmuşdur. "Ənəlhəq" aşiqin qəlbinin ilahi nurla nurlanmasının ifadəsidir.İnsanın Tanrı timsalında yaradıldığı, insanın hər cür kamilliyin mərkəzində olduğunu iddia edən Nəsimi düsturundaAllah mövcud olan hər şeydə görünür və hiss olunur, insanda Allahın əlamətləri var, insanın surətində "Allah" yazılıb, həmin üzdə insanın ən gözəl cizgiləri cəmlənmişdir. Beləliklə, Hürufi Nəsimiyə görə, Quranın bütün hikmətləri bu müqəddəs kitabın ilk ayəsi «Əl-Fatihə» surəsində ehtiva olunduğundaninsan surəti dəelə «Əl-Fatihə» surəsidir. Insan üzündəki hikmət və hüsnü Haqq kəlamı olan surənin eyni kimi oxuyan və dərk edən insani-kamil bu ilahi həqiqəti anladığı gündən Haqqın aşiq və divanəsinə çevrilmişdir.

Hürufilik təliminin əsasında hər şeyin mərkəzində insanın olması nöqteyi-nəzərindən "İnsan böyük bir qüvvədir" ideyasını təbliğ edən dahi Nəsiminin fikrincə, ən kamil insan onu əhatə edən gözəllikləri, eşqi duyan, onun simasında həqiqəti, həqqi-allahı görən və özünü də dərk edən insandır. Nəsimiyə görə insan xeyirin yüksək pilləsi olan Allahı dərk etməlidir və şərdən qaçmaq üçün mütləq onun sevgisi uğrunda "yanmağı" bacarmalıdır. Nəsimi şeiriyyatında Allaha sevgi o qədər dərin idi ki, Allah aşiqi olan insanları ilahi hesab edirdi. (Əliyev 2019: 35) Həm Azərbaycan, həm də Şərq ədəbiyyatı və fəlsəfi-dini düşüncəsinə «kamil insan» anlayışının yeni təsəvvürünü gətirən Nəsimi insanın mənəvi gücü və bacarıqlarını əsas götürürdü, beləliklə, insanın kamilləşməklə Allaha çatdığını iddia edirdi. Kamilləşmək üçün insan özündə özünü dərk etməli, tapmalıdır.

**Hər kim ki, həqqi-əhsəni-surətdə görmədi**
**Həqqə ta əbəd onun nəzərində nihan olur...**
**(İmadəddin 1985: 214)**

Göründüyü kimi, insanın mənəvi gücünü əsas götürən İ.Nəsimi onun kamilləşərək Allaha çatdığı fikrini irəli sürürdü. O, ateist deyildi, Quranın 41-ci surəsinin 53-cü ayəsindən iqtibas edimiş "ənəlhəqq" deməklə insanları həmişə öz qəlblərində Allahı duymağa çağırırdı (Azərbaycan klassik ədəbiyyatı kitabxanası 1985: 343). Nəsimi, belə desək, öz əsri ilə, yaşadığı dövrün dini-feodal quruluşu ilə daim mübarizə aparirdi. Şair-zaman konflikti Nəsimi poeziyasında üsyankar monoloqlarda səslənir:

**Ey özündən bixəbər qafil, oyan,**
**Haqqa gəl kim həq deyil batil, oyan,**
**Olma fani aləmə mail, oyan,**
**Mərifətdən nəsnə qıl hasil, oyan**
**(İmadəddin 1973a: 576)**

"Quran"da yer almış ayələrdən biri də bunu sübut edir: "Biz öz əlamətlərimizi dünyanın hər yerində və insanların özlərində göstərəcəyik ki, onun haqq (Allah) olması sübuta yetə".

Nəsimi fəlsəfəsinin əsasını da bu təşkil edir ki, dünyada nə mövcuddursa, o metafizika, yəni ideyalar aləmi ilə bağlıdır. Nəsimi fəlsəfəsində Allah ideyadan daha çox şəxsiyyət kimidir, onun qəti və bütöv inamına görə, dünya Allah tərəfindən yaradılıb və o heç zaman ideyalardan qopmuş metafizik varlıq deyil. Nəsimiyə görə insan maddi olsa da, Allah bütün maddi nə varsa, hamısından yüksəkdə dayanır. O hətta mənəvi olanlardan da yüksəkdə durur. O insanlarla birbaşa ünsiyyətdən də yüksəkdir (Tağısoy Məmmədov 2020: 21).

Seyid İmadəddin Nəsimi bütün yaradıcılığı boyu müqəddəs Qurani-Kərimdən bəhrələnib. "Qəlbimizdir surətin, əlhəmdülillah, ey nigar, Ta əbəd iyyakə məbuddur cəmalin nəstəin" söyləyən şair öz ideallarının istifadəsi məqsədilə "iyyakə məbudu, min cəmalikə nəstə iynu" ifadəsini ("Ancaq sənə pərəstiş edirik, sənin gözəlliyinə sığınırıq") Qurandan iqtibas edərək, insanın gözəlliyinə bəraət qazandırır, yalnız onun gözəlliyinə pərəstiş etdiyini bildirir (Səfərli, Yusifov 1982:199). Və yaxudda Qurandakı "Əhsəni-təqvim" ("Gözəl şəkilli") ifadəsini Quranın 95-ci surəsinin 2-ci ayəsindən iqtibas etmişdir. Bu ayədə "Biz insanı ən gözəl surətdə yaratdıq" deyilir:

**Əhsəni-təqvimə çün qılmadı şeytan sücud,**
**Uyma ana, səcdə qıl, lə'n et anı, narə at!**
**(İmadəddin 2004.C.II: 182)**

Nəsimi bəzən "əhsəni-təqvim", bəzən də "əhsəni-surət" (gözəl şəkilli) deyərək ancaq insanı nəzərdə tutmuş və onun qarşısında diz çöküb, səcdə qılmağı tövsiyə etməklə bərabər, insanlara xor baxan, onu iradəsiz bir alət hesab edən fəqihləri şeytan adlandırmışdır. Bu beytdə Nəsimi Quranın 2-ci surəsinin 34-cü ayəsindəki bir əfsanəyə işarə edir. Bütün mələklər Allahın əmri ilə Adəmə səcdə edir, ancaq İblis (şeytan) adlı mələk səcdədən boyun qaçırdığı üçün onu Allah lənətləyir (İmadəddin 2004 C.II: 339)

**Eşq fəsaisi Nəsiminin yaradıcılığında lirik qəhrəman**

Ümumiyyətlə, bir çox müsəlman mütəfəkkirləri qadın gözəlliyinə xitab etməklə mütləq gözəlliyi konkret mənada təsvir etməyə müvəffəq olmuşlar. Bu baxımdan insanların qəlbini, onların daxi-

li aləmini ilahi şeiriyyətlə, özünəməxsus zəngin söz yaradıcılığı ilə tərənnüm edən klassiklərimizin əsərlərində hər zaman yüksək mənəvi-əxlaqi keyfiyyətlərin təcəssümü olan füsunkar qadın portretləri əsas yer tutmuşdur. Fəlsəfi lirikanın, məhəbbət lirikasının fədakar müğənnisi İmadəddin Nəsiminin yaradıcılığında da, yuxarıda qeyd edildiyi kimi,insanın qəlb aləminin dürüst inikasını verən parlaq nümunələr kifayət qədərdir və onun yalnız həyat həqiqətlərini deyil, həm də ilahi gözəlliyi, ürfan dünyasının bənzərsizliyini tərənnüm edən qəzəlləri dünya ədəbiyyatında təkrarolunmaz bir fenomendir.

Könüllə ibadət, gözlə ibadət məsələsi bütün təriqətlərdə özünə bir tərəf kimi yer alır. Hürufilərdə də bu məsələ ciddiyyəti ilə ifadəsini tapır. Gözlə ibadət, gözəl üzə baxmaq Haqq ziyarəti olaraq qeyd edilir. Hürufi şairlərin şeirlərində Kəbəni ziyarət etmək anlamına da gəlir. "Sufi-hürufi şeirlərində Nəsimi ali bir eşqi tərənnüm edərəkinsan – Allah anlayışlarını irəli sürür, zərrədə günəş axtararaq varlığın bir vücudun vəhdətindən yarandığını söyləyir. Şairin lirik qəhrəmanı da mütəfəkkir və arif bir aşiqdir. (Qəni 2019: 41-42).

Nəsimi şeirindəki gözəllik kateqoriyası məhəbbət anlayışı ilə sıx bağlıdır. Nəsimi estetikasına bu baxımdan yanaşmaq lazımdır:

**Götür niqabüvü xəlqəgörün, ey şəmsü qəmər,**
**Görüb utana ləbindən nəbatü qəndü şəkər**
**(İmadəddin 2004.C.II:205).**

Nəsimini oxuyan oxucu ilk baxışda bu beytdə aşiqin öz sevgilisinin gözəlliyini vəsf etdiyini düşünür, onu günəşlə, ayla müqayisəedib, dodaqlarının qənddən, şəkərdən daha şirin olduğunu söylədiyini anlayır. Əslində isə şair bu beytdəmətn kontekstindən baxdıqda aşiqin məhbubunun üzündə həqqi gördüyünü çatdırmaq istəyir.

**Cahan üzün günəşindən münəvvər olmuşdur.**
**Səba saçın qoxusundan müəttər olmuşdur**
**(Azərbaycan klassik ədəbiyyatı kitabxanası 1985: 71)**

misraları ilə başlayan qəzəldə Nəsimi gözələ olan dərin məhəbbəti tərənnüm edir:

**Nəsimi, ey şəhi-xuban camalını görəli,**
**Gözündə surəti-rəhman müsəvvər olmuşdur.**
**(İmadəddin 1985: 209)**

O, sevgilisinə "şəhi-xuban", yəni "gözəllər şahı" deyə müraciət edir. İnsan gözəlliyinə pərəstişkarlıq ifadə edən bu seirin son misralarında şair, eyni zamanda gözəl sevməsinə bəraət qazandırmaq üçün gözəllər şahı olan sevgilisinə deyir ki,sənin üzünü görəndən bəri gözümdə surəti-rəhman (Allahın surəti)müsəvvər olmuşdur.

Nəsimi həm türk, həm də farsca yazdığı seirlərində gözəlin üzünü, gülüşünü vəsf edərkən "Şəms", "Düha", "Kövsər" surələrindən yararlanır, gözəlin üzünü "nəsrun minəllah" - Allahdan gələn köməyə bənzədir.

Ümumiyyətlə, dahi söz ustadının hər misrası eşq haqqında dünyəvi düşüncənin sözlə təsdiqidir. Nəsimiyə görə, əsl Haqq aşiqi aşiqliyini zahirdən göstərməyin qeydinə qalan yox, bu saflığıqəlbində, beynində daşıyandır. O, qadını ilahiləşdirir, lakin hürufuliyə xas olan insan konsepsiyası əsərlərində hər zaman ana xətt təşkil edir. Nəsimiyə görə, qadın sadəcə gözəllik rəmzi deyil, ən başlıcası o, insandır.Qadın nemətdir, gözəllikdir, insani məhəbbətə layiq olmaqla bərabər, ehtirama da layiqdir.Analıq vəsfi necə dəyərlidirsə, həyat və mübarizə yoldaşı qadın da elə dəyərli olmalıdır.

**Ay ilə günəş yüzün heyranıdır,**
**Müşk ilə ənbər saçın tərxanıdır,**
**Çün Nəsimi aləmin sultanıdır,**
**Dövr anın, dövran anın dövranıdır-**
**(İmadəddin 1962: 153)**

söyləyən eşq fədaisi Nəsiminin lirik qəhrəmanı aşiqdir. Eyni zamanda şairin lirik qəhrəmanı həm də mütəfəkkir və arif bir aşiqdir. Gözəllik və onun səcdəsində duran aşiq - insan Nəsimi sənətinin əsasını təşkil edir. İnsanın saf, nəcib duyğularının vəsfi onun yaradıcılığında daha mənalı səslənir. Şairin qələmə aldığı gözəl öz cazibədar hüsnü ilə "pərəstişə" layiqdir:

**Götürdü üzündən niqabı qəmər,**
**Utandı ləbündən nəbatü-şəkər.**
**Əsir olmayan hüsnünə adəmi,**
**Həcərdir, həcərdir, həcərdir, həcər**
**(Nəsimi divanı 1972:142)**

Dahi söz ustadı şeirlərində gözəli müstəsna varlıq, ən parlaq dürr, ən qiymətli gövhər kimi təsvir edir. Gözəlliyin təsdiqi Nəsimi poeziyası üçün səciyyəvi cəhətdir. O, gözəlliyin ən çox diqqəti cəlb edən xüsusiyyətlərini seçib ecazkar ustalıqla təsvir edə bilmişdir. Şairin sevgilisi dünyanı işıqlandıran ayla, günəşlə müqayisə edilir:

**Qaçan ki, sünbüli-zülfün niqabı ayə düşər,**
**Qəmər səhabə girər, aftabə sayə düşər.**
**(İmadəddin 1985:196)**

Və yaxud:

**Dağıtma yanagın üzrə zülfün,**
**Neylər bu günəş səhab içində**
**(İmadəddin 2004.CII: 231)**

- deməklə poetik bir mənzərə yaradır, ayın da, günəşin də öz işığını gözəldən aldığını demək istəmişdir. Ona görə də gözəl saçlarını üzünə tökəndə ay buluda girir, günəşə kölgə düşür, yəni bulud günəşi örtdükcə ətraf qaranlıqlaşır. Sevgilisinin zahiri gözəlliyinin təsvirinə həsr olunan (“Düşdü yenə dəli könül gözlərinin xəyalinə”, “Əcəba, bu huri üzlü məhi-bədr, ya pərimi?” və s.) qəzəllərində də gerçək gözəl tərənnüm obyekti olaraq götürülmüşdür.

Azərbaycan dilində məhəbbət lirikasının ilk nümunələrini yaratmış mütəfəkkir-şair Nəsimidə varlıq, “kövnü məkan” - ilahi eşqin təzahürüdür. Gözəllik ilahi başlanğıc kimi vəhdəti, bütövün harmoniyasını ifadə edir.

**Gər şərh edərsəm ayəti-hüsnün kitabını,**
**Hər bab içində fəslinə yüz min füsul ola**
**(İmadəddin 1985: 24)**

Burada şair “əgər yaradanın gözəllik ayələrini izah etsəm, gərək onda hər bölməsindəki fəsillər yüz min fəsildən ibarət ola” deməklə gözəllik aşiqi olduğunu bir da təsdiqləyir. Nəsimi fəlsəfəsinə görə, insan simasındakı gözəlliklərdə onu yaratmış Rəbbin nişanələri mütləqdir. Şair bu nişanəni sevgilisinin simasında görür, pərvanə kimi bu sevginin oduna yanıb-yaxılmaq istəyir.

**Şəmi-ənvarı təcəllidir cəmali-dilbərin**
**Ey könül, pərvanətək gəl yan bu şəmin narına...**
**(İmadəddin 2004.C.I: 55)**

O, Tanrı ilə İnsan vəhdətinicamal gözəlliyi timsalında təqdim edir. Yuxarıda qeyd etdiyimiz kimi, Nəsimi bəndəni daima Allaha yaxınlaşdırır, məqama - kamillik mərtəbəsinə qaldıraraq Haqqa qovuşdurur...İnsanın camal etibarilə gözəl yaradılması və onda Haqqa məxsus bir sıra əlamətlərin cəmlənməsişairin yaradıcılığında lazımı qədər özünə yer alır:

**Aləmi yüzün gülüstan eyləmiş,**
**Bülbülü sərməstü heyran eyləmiş,**
**Ənbərin zülfün, pərişan eyləmiş,**
**Mahini əbrində pünhan eyləmiş.**
**(İmadəddin 1962:157)**

“Eyləmiş canını çün, Nəsimi eşqə təslim” söyləyən şairin qəzəllərində işlətdiyi kamil günəş (sevgili dilbər), cənnət gülü (sevgili dilbər), can quşu (ruh), gözümün çırağı (sevgili dilbər), qəmər dövrü (cavanlıq, gənclik dövrü), əcəl yeli (ölüm, son), fitnəli nərgiz (sevgilinin valeh edici baxışları), viran könül (məhəbbətsiz qalmış ürək) və s. bu kimi məcazlaşmış söz birləşmələri Nəsimi kimi söz sərrafının bədii söz xəzinəsinin poetik obrazlar sisteminin əsasını təşkil etmişdir.Bu kimi məfhumlar birbaşa qadın gözəlliyinə məxsus olan atributların ilahi eşqin təsviri üçün dildəki məcaz və metaforlar vasitəsilə ifadə olunmasıdır. XIV əsr Azərbaycan poetik ədəbiyyatına incilər bəxş etmiş

Nəsimi "uca göylərin mehrabı olan"qənirsiz cazibənin - eşqin tərənnümü üçün mübaliğəli bənzətmələrdən istifadə edərək ayın ayparaya çevrilməsini məhz sevgilinin aypara qaşlarına bənzədir, qızılgülün rənginin, ətrinin gözəlin al yanaqlarından aldığını söyləyir.

Nəsimi qadını həm real varlıq, həm də həyatın bütün gözəlliklərini özündə cəmləşdirən geniş bir anlayış kimi götürür. Ümumiyyətlə, onun qəzəllərində "saç", "üz", "qaş", "göz" kimi gözəllik anlayışını ifadə edən məfhumlar və onlara müvafiq sifətlər, o cümlədən bədii xitablar çoxluq təşkil edir. Şair sevgilisinə xitabən: "Ey buyi-biharistan, vey huri-nigaristan, Vey dilbəri-sərməstan, didarinə müştaqəm!" və ya "Ey eşqi-dürəfşanım vey bülbüli-bustanım" deyə müraciət edir ki, burada "buyi-baharistan" baharda açılmiş ətirli gül; "bülbülibustanım" gül bağının bülbülü mənasını ifadə edir.

**Huri-eynin surəti ayinə oldu hüsnünə,**
**Şol səbəbdən xəlqə mərğub oldu həqdən huri-eyn.**
**(İmadəddin 2004.C.II: 68)**

"Huri-eyn" dini əfsanəyə görə cənnətdəki gözəl qadındır. Burada sair demək istəyir ki, Allah gözəl qadının hüsnündə təcəssüm etdiyinə görə Allahın əmri ilə də gözəl qadını sevmək haqqına malikik.

Və ya:

**Xubların eşqindən, ey zahid, məni mən eyləmə,**
**Çünki mana eşq oldu qismət günü həqdən nəsib**
**(İmadəddin 1985:29)**

"Ey zahid, gözəlləri sevməyi mənə qadağan etmə, çünki qismət günü haqdan mənə eşq nəsib oldu" deyərək insanın könül azadlığını təqdir edirdi.

Nəsiminin şeirlərindəki "yar", "dilbər" ilahi gözəlliklə bağlıdır, beləliklə də, o, ilahi məhəbbətlə insan məhəbbətini birləşdirir, gözəlliyə heyran olmaq hüququnu müdafiə edir. Ümumiyyətlə, məhəbbət mövzusuna həsr olunmuş Nəsimi qəzəllərində biz sevən insanın əzm və iradəsini görürük. Onun tərənnüm etdiyi sevgili bəşəri xislətlidir, real gerçəkliyin, maddi aləmin yetirməsidir. O, lirik qəhrəman üçün ən qiymətli varlıq, həyatın mənasıdır:

**Dilbəra, mən səndən ayrı təndə canı neylərəm?**
**Malı mülki, təxti, tacı, xanümanı neylərəm?**
**(İmadəddin 1973b:108)**

Və yaxud da bir başqa nümunəyə diqqət yetirək. Bu misralarda bütün mahiyyəti ilə insanın zahiri gözəlliyinin, hüsn, camal qeyri-adiliyi ifadə edilir. Nəsimi zahirən gözəl insanı tərənnüm etməkləqəlbində bu insanı yaratmış qüdrəti – Tanrı qüdrətini vəsf edir:

**Ay ilə günəş yüzün heyranıdır,**
**Müşk ilə ənbər saçın tərxanıdır,**
**Çün Nəsimi aləmin sultanıdır,**
**Dövr anın, dövran anın dövranıdır**
**(İmadəddin 1962:153).**

## Nəticə

XIV-XV əsrlər Azərbaycan ədəbiyyatı tarixi-mədəni mənzərəsi, ictimai-siyasi mühiti əhatə etmək, onu bu və ya digər dərəcədə faktlaşdırmaq anlamında mühüm əhəmiyyət kəsb edir. Bu gün həmin dövrə diqqət yetirdikdə və İmaddədin Nəsimi timsalında siyasi mənzərəni nəzərdən keçirdikdə proseslərin ümumi məzmunu haqqında dolğun təsəvvür yaranır.

Böyük söz ustadının əsas mövzusu dünyəvi gözəllik, məhəbbət olan qəzəlləri ictimai-fəlsəfi məzmun daşıyaraq zəmanənin həyatını bütün işıqlı və kölgəli cəhətləri ilə işıqlandırır. Poeziyasının qaynağını "Quran" ayələritəşkil edən Nəsimi yaradıcılığı yaşadığı dövrün obyektiv poetik salnaməsidir. Onun yaradıcılığı dövrün reallıqlarını bir problem olaraq bütün zamanların baş verən olacaqlarını əhatə etməklə məsələnin ciddiliyini özündə ehtiva edir. Tarix tarixdə qalır. Bu nöqteyi-nəzərdən Nəsimininbu qəbildən tarixi sənəd siqlətli qəzəlləri bir şeir nümunəsi olaraq ayrıca dəyər daşıyır. Yəni bu, həmin məqamdır ki, sənət çevrilib sənəd də ola bilir.

Və yaddan çıxarmayaq ki, klassik sənətkarların ölməzliyinin sirri onların öz dövründə tutduğu mövqe ilə deyil, bizim dövrümüzə hansı mənəvi dəyərləri ünvanlaması ilə şərtlənir. Anadilli sözün, sənətin, şeirin zirvəsini fəth edən Nəsimi poeziyası ona görə həmişəyaşardır ki, zamanla ayaqlaşır, böyük tərbiyəvi əhəmiyyətə malik olmaqla bu gün də kamil insan formulunu misralarla oxucuya aşılayır.Onun humanizm fəlsəfəsinin yüksək ideoloji və mədəni dəyəri bu gün milli və beynəlxalq əhəmiyyətini qoruyub saxlayır. Zamana və məkana sığmayan Nəsimi bir ədəbi şəxsiyyət idi,onunideyaları müasir dövrün ideyaları ilə səsləşir, əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda bu gün də davam edir. Bu da danılmaz faktdir ki,əsrlərdir İmadəddin Nəsimi ürəkləri fəth edən əsərləri ilə hər bir oxucusunun müasiridir. Özünün də dediyi kimi, "dadlı" Nəsimi şeiriyyətinin təravəti solmayacaq, bəşəriliyini qoruyub saxlayacaqdır. Bəli, özünün də dediyi kimi:

**Gərçi Nəsimi *sözün dadını* verdi, vəli**
**Dadəgətürdi anı ləfzi-şəkərbarımız...**
**(İmadəddin 1985:65)**

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan klassik ədəbiyyatı kitabxanası (1985). V cild. Bakı: Elm.
2. Əliyev, M. (2019). Nəsimi yaradıcılığına yeni baxış. İpək yolu, № 2, s.31-36.
3. Gibb, E. A. (1900). History of Ottoman Poetry.
4. İmadəddin, N. (1973a). Məndə sığar iki cahan. Bakı: Gənclik.
5. İmadəddin, N. (1973b). Seçilmiş əsərləri. Bakı: Azərnəşr.
6. İmadəddin, N. (1985). Seçilmiş əsərləri. Bakı: Maarif.
7. İmadəddin, N. (2004). Seçilmiş əsərləri, I cild. Bakı: Lider Nəşriyyat.
8. İmadəddin, N. (2004). Seçilmiş əsərləri. II cild. Bakı: Lider Nəşriyyat.
9. İmadəddin, N. (1962). Seçilmiş şeirlər. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı.
10. Qəni, T. (2019). İmadəddin Nəsiminin dini-fəlsəfi, ədəbi-mədəni dünyagörüşünün ümumi aspektləri. İpək yolu, №2, s.37-42.
11. Nəsimi divanı. (1972). Bakı.
12. Səfərli, Ə., & Yusifov, X. (1998). Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif.
13. Şıxıyeva, S. (2018). Hürufiliyin tarixi:ənənəviləşmiş təhriflər, unudulan gerçəkliklər. Metafizika–Cild 1, Say 2, s.65-96
14. Tağısoy Məmmədov, N. (2020). Nəsimi dini-fəlsədi təlimində Haqqın və insanın dərki. Bakı: Elm və təhsil.